***20 Yanvar bayatıları***

Mən aşiq ana ağlar,
Başına qara bağlar.
Igidi şəhid olmuş,
Qıy vurar, özü ağlar.

Mən aşiq bağlı qaldı,
Sinəsi dağlı qaldı.
Toy otağı bəzəndi,
Qapısı bağlı qaldı.

Səda saldım aləmə,
Lalə çatmaz laləmə.
Mələklər də oyandı,
Mənim ahi-naləmi.

Mən aşiq üzü qaldı,
Ocaqda gözü qaldı.
Ürəyində min arzu,
Ağzında sözü qaldı.

Mən aşiqəm tarımla,
Kamalımla, tarımla,
Səmada mələkləri,
Oyatdım ah-zarımla.

Qəlbim lalə yarpağı
Çəkə bilməm bu dağı.
Könlüm alışıb yanır,
Söndürməyin çırağı.

Hacıyev A. 20 Yanvar bayatıları // Bakı. – 1994. – 20 yanvar.